| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 21.10.2005 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1039-IIQ |
| **ADI** | Ünvanlı dövlət sosial yardımı haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2005, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1005) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 01.01.2006 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 080.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**Ünvanlı dövlət sosial yardımı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan digər münasibətləri tənzimləyir.

M a d d ə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda aşağıdakı əsas anlayışlardan istifadə olunur:
1.0.1. ehtiyac meyarı - əhalinin əsas sosial-demoqrafik qrupları üzrə ya şayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan hədd;
1.0.2. ailə - qohumluq və ya qanunvericiliklə müəyyən olunmuş digər xü susiyyətlərə görə bağlılığı olan, birgə yaşayan, ümumi ev təsərrüfatına malik şəxslər və yaxud tənha yaşayan şəxslər;
1.0.3. ailənin gəlirləri - ailə üzvlərinin bütün növ gəlirləri, o cümlədən ailə üzvlərinə bağışlanmış hədiyyələr, mülkiyyətdən, ailə üzvlərinə məxsus əmlakdan, şəxsi yardımçı təsərrüfatdan əldə olunan və yaxud əldə oluna biləcək pul və natural formada gəlirlərinin toplusu;
1.0.4. ailənin orta aylıq gəliri - ailənin gəlirinin orta aylıq göstəricisi;
1.0.5. aztəminatlı ailə - orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailə;
1.0.6. ünvanlı dövlət sosial yardımı (bundan sonra — sosial yardım) — aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımıdır.

M a d d ə 2. **Ünvanlı dövlət sosial yardımı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Ünvanlı dövlət sosial yardımı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, *"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunundan,* bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.[1]

M a d d ə 3. **Sosial yardım almaq hüququ olan ailələr**

Sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblər dən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün *orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi m üəyyən edilmiş şəxsə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə və ya 8 yaşın a çatmamış uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması,* müvafiq icra hakimiyyəti orqanında *dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar* işsiz kimi qeydə alınması, vəfat et məsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması ~~və s.~~) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər.[2]

M a d d ə 4. **Sosial yardımın məqsədi və prinsipləri**

4.1. Sosial yardımın məqsədi aztəminatlı ailələrin sosial müdafiəsinin tə min edilməsindən ibarətdir.
4.2. Sosial yardımın əsas prinsipləri aşağıdakılardan ibarətdir:
4.2.1. ünvanlılıq - sosial yardım yalnız aztəminatlı ailələrə təyin olunur;
4.2.2. ədalətlilik - sosial yardım ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasındakı fərq məbləğində təyin olunur;
4.2.3. bərabərlik - sosial yardım bütün aztəminatlı ailələrə təyin olunur.

M a d d ə 5. **Sosial yardımın maliyyə mənbəyi**

Sosial yardım dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

Maddə 6. **Sosial yardımın alınması üçün müraciət edilməsi, onuntəyin olunması, verilməsi və verilməsindən imtina edilməsi**

6.1. Sosial yardım aztəminatlı ailələrə ~~yaşayış yeri üzrə~~ müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunur.[3]
6.2. Sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi qaydaları *"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və* bu Qanuna əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[4]
*6.3. Sosial yardımın alınması ilə bağlı elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.*[5]

M a d d ə 7. **Sosial yardımın məbləği**

7.1. Sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır.
7.2. Ehtiyac meyarı mərhələlərlə ölkə üzrə yaşayış minimumuna çat dırılır;

7.3. Ailənin orta aylıq gəlirinin hesablanması qaydası müvafiq icra haki miyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 8. **Sosial yardımın təyin olunması müddəti**

8.1. Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən *1 il* müddətinə təyin olunur.[6]
8.2 Aztəminatlı ailə sosial yardım almaq üçün təkrar müraciət etmək hüququna malikdir.

Maddə 9. **Sosial yardımın təyin olunması zamanı ailə tərkibində nəzərə alınmayan şəxslər**

9.0. Sosial yardımın təyin olunması zamanı yardımın verilməsi üçün ailə tərkibində aşağıdakı şəxslər nəzərə alınmır:
9.0.1. tam dövlət təminatında olan şəxslər (uşaq evi və internatlarda, *ahıllar və əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələrində*, xüsusi təhsil müəssisələrində yaşayan şəxslər);[7]
9.0.2. müddətli həqiqi hərbi xidmətdə olan şəxslər;
9.0.3. cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər;
9.0.4. axtarışda olan şəxslər;
9.0.5. Azərbaycan Respublikasının ərazisində yaşamayan Azərbaycan Respublikası vətəndaşları;
9.0.6. əcnəbilər (Azərbaycan Respublikasının ərazisində daimi yaşayanlar istisna olmaqla) .[8]

Maddə 10. **Sosial yardım almaq hüququna yenidən baxılması**[9]

*10.1. Sosial yardım almaq üçün müraciət edilən zaman ailə sosial yardımın təyin olunmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar barədə (ailənin tərkibi, əmlakı və gəliri haqqında) tam və düzgün məlumat verməlidir.*
*10.2. Sosial yardım təyin edildikdən sonra ailənin gəlirlərində dəyişiklik baş verdikdə, sosial yardım alan ailə bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) 15 (on beş) iş günü müddətində məlumat (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya ehtiyatlarından və sistemlərindən əldə olunan məlumatlar istisna olmaqla) verməlidir.*
*10.3. Bu Qanunun 10.2-ci maddəsində göstərilən halda, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya ehtiyatlarından və sistemlərindən əldə olunan məlumatlar (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsis etdiyi təqaüdlərin, sosial müavinətlərin məbləğinin, əmək pensiyasının minimum məbləğinin və minimum aylıq əməkhaqqının məbləğinin artırılması, əmək pensiyalarının indeksləşdirilməsi və seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün verilmiş əmlak barədə məlumatlar istisna olmaqla) əsasında sosial yardımın dayandırılmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar aşkarlandıqda, sosial yardımın ödənişi dayandırılır və ailənin sosial yardım almaq hüququna yenidən baxılır.*
*10.4. Ailənin sosial yardım almaq hüququna baxılma zamanı sosial yardımın təyin olunmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar barədə (ailənin tərkibi, əmlakı və gəliri haqqında) düzgün olmayan və ya natamam məlumat verildiyi aşkar olunduqda və yaxud bu Qanunun 10.2-ci maddəsinin tələbi pozulduqda, həmin ailə 1 (bir) il müddətinə sosial yardım almaq hüququnu itirir.*
*10.5. Aztəminatlı ailənin üzvü "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq özünüməşğulluğa cəlb edildiyi hallarda, həmin ailənin sosial yardım almaq üçün müraciət etmək hüququ seçilmiş özünüməşğulluq istiqaməti üzrə əmlakın verilməsi barədə müqavilənin qüvvədə olduğu müddət ərzində məhdudlaşdırılır.*
*10.6. Sosial yardımın təyinatı zamanı ailə tərəfindən bilərəkdən tam və ya düzgün olmayan məlumatın verilməsi, eləcə də sosial yardımın ödənildiyi müddətdə ailənin gəlirlərində baş vermiş dəyişikliklər barədə məlumatın (bu Qanunun 10.3-cü maddəsində qeyd olunanlar istisna olmaqla) verilməməsi səbəbindən artıq vəsait ödənildiyi zaman sosial yardım alan ailə artıq ödənilmiş sosial yardımın məbləğini könüllü qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) qaytarmalıdır. Bundan imtina edilərsə, bu barədə mübahisəyə məhkəmə qaydasında baxılır.*

Maddə **11. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasına görə təqsirkar şəxslər Azərbaycan Respublika sının qanunvericiliyində müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

Maddə 12. **Qanunun qüvvəyə minməsi**

Bu Qanım 2006-cı il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 oktyabr 2005-ci il
1039–IIQ

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 13 iyun 2008-ci il tarixli **641-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 474**)
2. 13 iyun 2008-ci il tarixli **648-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 602**)
3. 24 fevral 2015-ci il tarixli **1204-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 mart 2015-ci il, 60,** (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 3, maddə 257** )
4. 24 aprel 2018-ci il tarixli **1084-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2018-ci il, 113 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 871**)
5. 1 fevral 2019-cu il tarixli **1482-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 380**)
6. 19 may 2020-ci il tarixli **111-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyul 2020-ci il, 139 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 829**)
7. 2 iyun 2020-ci il tarixli **125-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 iyul 2020-ci il, 140 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 840**)
8. 22 iyun 2021-ci il tarixli **349-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 avqust 2021-ci il, 173 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 895**)

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

[1] 2 iyun 2020-ci il tarixli **125-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 iyul 2020-ci il, 140 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 840**) ilə 2-ci maddəyə "**bu Qanundan**" sözlərindən əvvəl "**İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunundan,**" sözləri əlavə edilmişdir.

[2] 24 aprel 2018-ci il tarixli **1084-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2018-ci il, 113 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 871**) ilə 3-cü maddədə "**orqanında**" sözündən sonra "**dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar**" sözləri əlavə edilmişdir.

2 iyun 2020-ci il tarixli **125-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 iyul 2020-ci il, 140 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 840**) ilə 3-cü maddəyə "**müvafiq icra hakimiyyəti orqanında**" sözlərindən əvvəl "**birinci dərəcə əlilliyi olan şəxsə, 8 yaşına çatmamış uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması,**" sözləri əlavə edilmişdir və "**və s.**" sözləri çıxarılmışdır.

22 iyun 2021-ci il tarixli **349-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 avqust 2021-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 895**) ilə 3-cü maddədə "**birinci dərəcə əlilliyi olan şəxsə, 8 yaşına çatmamış uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa**" sözləri "**orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə və ya 8 yaşına çatmamış uşağa**" sözləri ilə əvəz edilmişdir.

[3] 2 iyun 2020-ci il tarixli **125-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 iyul 2020-ci il, 140 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 840**) ilə 6.1-ci maddədən "**yaşayış yeri üzrə**" sözləri çıxarılmışdır.

[4] 2 iyun 2020-ci il tarixli **125-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 iyul 2020-ci il, 140 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 840**) ilə 6.2-ci maddəyə "**bu Qanuna**" sözlərindən əvvəl "**İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və**" sözləri əlavə edilmişdir.

[5] 1 fevral 2019-cu il tarixli **1482-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 380**) ilə yeni məzmunda 6.3-cü maddə əlavə edilmişdir.

[6] 13 iyun 2008-ci il tarixli **641-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 474**) ilə 8.1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~8.1. Sosial yardım almaq üçün istənilən ayın 15-dək müraciət edildikdə həmin ayın 1-dən, ayın 15-dən sonra müraciət edildikdə isə növbəti ayın 1-dən 6 ay müddətinə təyin olunur;~~

24 fevral 2015-ci il tarixli **1204-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 mart 2015-ci il, 60,** (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 3, maddə 257**) ilə 8.1-ci maddəsində "**1 il**" sözləri "**2 il**" sözləri ilə əvəz edilmişdir.

2 iyun 2020-ci il tarixli **125-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 iyul 2020-ci il, 140 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 840**) ilə 8.1-ci maddədə "**2 il**" sözləri "**1 il**" sözləri ilə əvəz edilmişdir.

[7] 13 iyun 2008-ci il tarixli **648-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 602**) ilə 9.0.1-ci maddəsində **"və əlillər"** sözləri **", əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar"** sözləri ilə əvəz edilmişdir, **"internat evlərində"** sözlərindən sonra **", xüsusi təhsil müəssisələrində"** sözləri əlavə edilmişdir.

19 may 2020-ci il tarixli **111-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyul 2020-ci il, 139 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 829**) ilə 9.0.1-ci maddədə "**qocalar, əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində**" sözləri "**ahıllar və əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

[8] 13 iyun 2008-ci il tarixli **641-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 474**) ilə 9.0.6-cı maddədə **"əcnəbilər"** sözündən sonra **"(Azərbaycan Respublikasının ərazisində daimi yaşayanlar istisna**

**olmaqla)"** sözləri əlavə edilmişdir.

[9] 13 iyun 2008-ci il tarixli **641-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 474**) ilə 10.2-ci maddənin ikinci cümləsində **"yardımın"** sözündən sonra "**təyin olunmamasına,"** sözləri əlavə edilmişdir və həmin cümlədə **"2 il"** sözləri **"1 il"** sözləri ilə əvəz edilmişdir.

2 iyun 2020-ci il tarixli **125-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 iyul 2020-ci il, 140 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 840**) ilə 10-cu maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~10.1. Sosial yardımın məbləğinin dəyişdirilməsinə və ya verilməsinin dayandırılmasına səbəb ola biləcək hallar baş verdikdə (ailənin tərkibi və ya gəlirləri dəyişdikdə) sosial yardımın verilməsi dayandırılır və ailənin sosial yardım almaq hüququna yenidən baxılır.~~

~~10.2. Bu Qanunun 10.1-ci maddəsində nəzərdə tutulan hallardan biri baş verdikdə sosial yardım alan ailə bu barədə müvafiq icra hakimiyyəti orqanına 7 gün müddətində məlumat verməlidir. Sosial yardımın təyin olunmamasına, məbləğinin azaldılmasına və ya verilməsinin dayandırılmasına səbəb ola biləcək hallar barədə məlumat verilmədiyi təqdirdə, həmin ailə 1 il müddətinə sosial yardım almaq hüququnu itirir.~~

~~10.3. Sosial yardımın verilməsinə təsir edəcək hallar barədə zəruri məlumatların verilməməsi, yaxud ailə tərkibi və ailə üzvlərinin gəlirləri barədə düzgün olmayan məlumatların verilməsi səbəbindən artıq yardım ödənildiyi hallarda, sosial yardım alan ailə artıq ödənilmiş yardımın məbləğini könüllü qaydada müvafiq icra hakimiyyəti orqanına qaytarmalıdır, bundan imtina edilərsə, bu barədə mübahisəyə məhkəmə qaydasında baxılır.~~